# Ermənilər işğal etdikləri ərazilərimizdə ekoloji genosid həyata keçirirlər

***❐ Ermənistanın həyata keçirdiyi işğalçılıq siyasəti ölkəmizin təbiətinə, bioloji müxtəlifliyə, bütövlükdə regionun ekoloji durumuna ciddi ziyan vurur və ətraf mühitin korlanması ilə nəticələnən ciddi fəsadlara gətirib çıxarır.***



Müharibə qanun-qaydaları barədə 1907-ci il Haaqa Konvensiyasına görə, müharibə aparan tərəf qarşı tərəfin ərazisini işğal edərsə, bu zaman mülki əhaliyə aid olan əmlakın talan edilməsinə yol verilmir və bu əməl hərbi cinayət hesab edilir. Bəs Azərbaycanın işğal edilmiş ərazilərində ermənilər necə davranırlar?

Bu ərazilərdə baş verənlər barədə müxtəlif mənbələr vasitəsilə əldə edilən dəlillər – foto və videogörüntülər, şahid ifadələri, xarici jurnalistlərin müşahidələri və digər məlumatlar göstərir ki, Ermənistan Haaqa Konvensiyasını və müharibə qanunlarını tənzimləyən digər beynəlxalq konvensiyaları birbaşa pozur. Heç şübhəsiz ki, işğal edilmiş ərazilərdə bu gün də davam etməkdə olan kütləvi talançılıq həm Dağlıq Qarabağdakı erməni separatçılarının, həm də Ermənistanın əsas gəlir qaynaqlarıdır.

Ekoloji problemlər hazırda dünyada qlobal məsələ kimi müzakirə olunur və həyəcan təbili çalınır. Ancaq beynəlxalq təşkilatlar ermənilərin Azərbaycan təbiətinə vurduğu ziyanın qarşısını almaq üçün nəinki ciddi əməli işlər görmür, əksinə, buna göz yumurlar. BMT Baş Məclisinin 60-cı sessiyasında Azərbaycan ərazilərindəki vəziyyət müzakirəyə çıxarılıb. Həmin sessiyada işğal olunmuş ərazilərdə ermənilərin Azərbaycanın təbiətinə vurduqları ziyanla, yanğınların törədilməsi ilə bağlı ciddi narahatlıqlar diqqətə çatdırılıb. Daha sonra əraziyə ATƏT-in qiymətləndirmə missiyası göndərilib. Yaradılmış xüsusi komissiya yanğınların törədildiyi ərazilərdə olub və hesabat hazırlanaraq BMT-yə təqdim edilib. Hələ ki, ciddi bir nəticəsi yoxdur.

Azərbaycan tərəfi işğal olunmuş ərazilərdə fəaliyyət göstərən xarici şirkətlərlə bağlı həmin şirkətlərin təmsil olunduğu ölkələrin müvafiq dövlət qurumlarına etiraz məktubları göndərib. Bütün bunlara baxmayaraq, Azərbaycan ərazilərində ekoloji terror davam etdirilir, işğal altındakı torpaqlarımızda narkotik bitkilərin plantasiyaları ildən-ilə genişlənir.



Ətraf mühitə və inkişafa dair Rio-de-Janeyro Bəyannaməsinə görə, müharibələr davamlı inkişaf prosesinə dağıdıcı təsir göstərməməlidir. Ona görə də dövlətlər silahlı konfliktlər zamanı ətraf mühiti mühafizə edən beynəlxalq hüquqa hörmət etməlidirlər. Lakin ermənilər nəinki bu prinsipləri gözləmir, əksinə, kobud surətdə pozaraq işğal etdikləri ərazilərdə təbiəti talan edirlər.

Azərbaycanın ermənilər tərəfindən işğal edilmiş təbii sərvətlərinin miqyası məlumdur. Belə ki, 261 min hektar meşə, o cümlədən 13 min 197 hektar qiymətli meşə sahələri, 215 ədəd təbiət abidəsi, 5 ədəd geoloji-paleontoloji obyekt, hündürlüyü 45 metr, diametri 6-8 metrədək, yaşı 120 ildən cox olan pasportlaşdırılmış 145 Şərq çinarı və digər təbiət abidələri talan olunaraq əksəriyyəti məhv edilmişdir.

Azərbaycan Respublikasına aid və işğal altında saxlanılan torpaqlardakı bütün növdən olan təbii sərvətlər talan edilərək ərazidən çıxarılır. Burada 163 faydalı qazıntı yataqları, o cümlədən 5 qızıl, 7 civə, 2 mis, 1 qurğuşun və sink, 1 daş kömür, 6 gəc, 4 vermikulit, 1 soda istehsalı üçün xammal, 12 əlvan və bəzək daşları, 10 mişar daşı, 21 üzlük daşı, 9 gil, 20 sement xammalı, 8 müxtəlif növ tikinti daşları, 6 əhəng xammalı, 10 qum-çınqıl, 4 tikinti qumu, 1 perlit, 8 pemza-vulkan külü,16 yeraltı şirin su və 11 mineral su mənbəyi yerləşir ki, bu sərvətlər vaxtilə ölkənin iqtisadi potensialında mühüm əhəmiyyət kəsb edib və illərdir ki, ermənilər tərəfindən talan olunur.

Qəsb olunmuş ərazilərdə 460 növdən çox yabanı ağac və kol bitkiləri bitir. Bunlardan 70-i endemik növ olub, dünyanın heç bir yerində təbii halda bitmir. Qaracöhrə, ayıfındığı, Araz palıdı, yalanqoz, Şərq çinarı, adi nar, meşə üzümü, pirkal, şümşəd, Eldar şamı, adi xurma, söyüdyarpaq armud və digər növ ağaclar işğal olunmuş ərazilərdə məhv edilərək dünya florasının xəzinəsindən silinmək üzrədir.

Eyni zamanda, bu ərazilərdə "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş məməlilərin 4, quşların 8, balıqların 1, amfibiya və reptililərin 3, həşəratların 8, bitkilərin 27 növü qorunurdu ki, bunların da xeyli hissəsi artıq məhv edilmişdir.

Böyük əhəmiyyətə malik xüsusi mühafizə olunan təbiət ərazilərinin 70 min 388,6 hektarı – Bəsitçay və Qaragöl dövlət təbiət qoruqları, Arazboyu, Laçın, Qubadlı və Daşaltı dövlət təbiət yasaqlıqlarının ərazilərində olan qiymətli ağac və digər nadir biomüxtəliflik nümunələri bu gün də işğalçı ordunun tapdağına məruz qalaraq məhv edilir.

İşğal olunmuş ərazilərdən keçən təbii su mənbələrimiz də Ermənistan tərəfindən həddindən artıq çirklənməyə məruz qalır. Araz və Kür çaylarının qolları olan Oxçuçay və Ağstafaçayın Ermənistan tərəfindən ən ağır şəkildə çirkləndirilməsi nəticəsində həmin çaylarda canlı aləmin yaşayışı üçün ciddi təhlükə yaranıb.

Azərbaycanın işğal olunmuş ərazilərində ekoloji əhəmiyyətə malik göllər böyük antropogen təsirə məruz qalır. Bu ərazilərdə irili-xırdalı 7 relikt göl: Kəlbəcər və Laçın rayonlarının yaylaqlarında Böğyük Alagöl, Kiçik Alagöl, Zalxagöl, Qaragöl, İşıqlı Qaragöl və Ağdərə rayon ərazisində (Tərtərin qolu olan Torağaçayda) Qaragöl kimi şirin su mənbələri çirkləndirilir, dağıdılır və nəticədə unikal bir ərazi ekoloji fəlakət həddinə çatdırılmışdır.

Ümumilikdə, Azərbaycanın işğal olunmuş ərazilərində Ermənistan ordusunun əsgərləri tərəfindən qəsdən törədilmiş yanğınlar nəticəsində 100 min hektar otlaq, biçənək və yaşıllıqlar, həmçinin meşə sahələri yanaraq məhv olmuş, torpağın üst münbit qatı yararsız hala düşmüşdür. Yanğınlar zamanı ətraf mühitə təxminən 300 milyon manat məbləğində ziyan dəymişdir.

Eyni zamanda, Azərbaycanın təbii sərvətlərinin talan edilməsi və öz evindən – obasından didərgin düşmüş məcburi köçkünlərə vurulmuş maddi və mənəvi ekoloji ziyan nəticəsində ölkəmizə, təxmini hesablamalara əsasən, 31,72 milyard manat məbləğində ziyan dəymişdir.

İşğal olunmuş ərazilərdə erməni talançılarının canlı təbiətə və bəşəriyyətə qarşı yönəlmiş əməlləri barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Avropa Vəhşi Təbiətin və Təbii Ətraf Mühitin Mühafizəsi üzrə Bern Konvensiyasının Baş katibinə, Biomüxtəliflik üzrə Konvensiyanın İcraçı katibinə, Birləşmiş Millətlər Təşkilatının İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının katibliyinə, Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi üzrə Beynəlxalq Birliyin prezidentinə rəsmi müraciətlər edilmiş, beynəlxalq təşkilatların diqqətinə bu istiqamətdə təxirəsalınmaz tədbirlərin görülməsinin zəruriliyi çatdırılmışdır. Lakin Ermənistan bütün bunlara məhəl qoymadan Azərbaycanın işğal altındakı ərazilərində ekoloji terroru davam etdirməkdədir.

***Hazırladı:***
***M.MÜKƏRRƏMOĞLU,***
***"Xalq qəzeti"***